# Ulu Öndər hakimiyyətə qayıdışı ilə müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu

***Dekabrın 9-da Xətai Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının birgə təşkilatçılığı ilə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib.***

Tədbir iştirakçıları öncə Heydər Əliyev Parkında ulu öndərin abidəsi önünə qızılgül dəstələri qoyublar.

Sonra YAP Xətai rayon təşkilatının qərargahında Xətai rayon orta ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş “Dahi Lider” adlı rəsm sərgisinin nümayişi olub.

YAP Xətai rayon təşkilatının akt zalında davam edən tədbirdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə ulu öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin yaranması və inkişafında əvəzsiz xidmətlərindən bəhs edib. O deyib ki, ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu. Vüqar Rəhimzadə bildirib ki, son 18 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev tariximizin Zəfər səhifəsini yazdı, ərazi bütövlüyümüz bərpa olundu. Bütün bu uğurlar Heydər Əliyev siyasətinin təntənəsidir. Qarşıda Azərbaycanı daha möhtəşəm uğurlar gözləyir.

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev isə ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə bu günümüz üçün qurulan möhkəm təməldən danışıb. Bugünkü Azərbaycan məhz həmin dövrdə yaradılan möhkəm təməl üzərində inkişaf edir, uğurla addımlayır. Onun sözlərinə görə, dahi şəxsiyyət Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin qarşısında geniş imkanlar açdı. R.Quluyev ulu öndər Heydər Əliyevin gələcəyimiz olan gənclərin milli ruhda tərbiyəsi, Azərbaycana bağlılığı istiqamətində gördüyü işlərdən, Azərbaycanın tarixi Zəfərindən bəhs edib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun atası, Xətai Rayon Ağsaqqallar Şurasının sədri, fəlsəfə elmləri doktoru, professor İzzət Rüstəmov, YAP Xətai rayon təşkilatının Xocalı prospekti 30 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri Vaqif Abbasov, gənc fəal Ruslan Qasımov, “Dahi Lider” rəsm sərgisinin qalibi Fidan Rzaquliyeva ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı misilsiz xidmətlərindən danışıblar.



Tədbirdə Xətai rayon orta ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş “Dahi Lider” mövzusunda keçirilən rəsm sərgisinin qaliblərinə diplomlar verilib.

Sonda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

*Mübariz ABDULLAYEV*

“Spark Live” boyası, metal saplar və bir sıra digər mühafizə